

**Tural Turan**

## Ayaqyalın tablo

*(sevdiyimə)*

Bir kor it ulayır
Günəşin öldüyü tərəfdə.
Notlarını unudanda
quyruğunu bulayır...
Deyəsən, bu gecə duası yatıb qalıb.

Yan küçədə
kölgəsinin qanını yalayır
payızdan ürkən budaqlar.
Bir az aralıda
kiminsə ovcuna qanını tökür
dodaqları qurumuş bulaqlar.
Başının üstündəki sükut
qaşlarını çatıb qalıb...

Mənsə düşürəm,
düşürəm ayaq izlərimin dalınca;
Çəlikli pilləkanlar ötür yanımdan.
Bir ayaqyalın tablo qaçır kor itə sarı.
Bir payız hönkürür budaqların qibləsinə...
İçimə yeriyən ayaq izlərim
dolanıb-dolanıb öpür qanımdan.

Bayaqkı ayaqyalın tablonun
əlindən saldığı məktubu oxuyuram:

...-Hardasa heykəllərin başına dolanır kilsə zəngi,
Hardasa,
yiyəsiz göz yaşlarının alnından öpür uzaqlar.
Pəncərələrsə badə qaldırır
Tənha skamyaların sağlığına...

***

...tutub bir ahın əlindən,
getdim gözdən uzaqlara.
...min-min günahın əlindən
itdim özdən uzaqlara.

...içimdə öldürdüklərim
yedi məni diri-diri.
...söz bitirdi qəbir yerim,
atdı sözdən uzaqlara.

...dan yerində ağ örpəyəm,
təkcə Tanrıdan ürpəyəm.
Ağzıdualı körpəyəm...
Ötdüm sizdən uzaqlara.

## Yalnızlığın gündəliyi

Oktyabr - ...Alnına bir güllə sıxır pəncərəmə düşən işıq.
Noyabr - Kölgələr sürünür üzü günəşə...
Dekabr - Göz yaşlarından üz çevirir divarlar...
Yanvar - ...İşıqları söndürün, Tanrı insan yaradır.
Fevral - Dodaqdan üşüyürəm yenə bu axşam...
Gəl, geyindir dodaqlarımı.
Mart - Həssaslığın alın təridi bütün şərablar...
Aprel - Cib saatım bir ovuc qaranlığı kiridir.
May - Bütün şəkillər doğmaları ilə görüşə gedib,
bircə məndən savayı...
İyun - Əslində, bütün peyğəmbərlər
Tanrının müharibə ismarışıdı...
İyul - Göy üzü qəbrini tapmır...
Avqust - Poçtalyonun məktublarından gəlir güllə səsləri...
Sentyabr - Bircə dəfə qapımı döyə Tanrı
və deyə ki: icazə ver, ayrılaq...

## Sən gül...

...Bəlkə insan kölgəsinin alın yazısıdı,
Bəlkə də tanrının ağzından saldığı
ağıl dişidi...
Bəlkə də cəhənnəm elə insanın özüdür -
Qucaqlayır anadan yetim qalmış soyuqları...
...Yanaqlarından
bir təbəssümlük kərpic düşüb elə bil,
Qapısı açıq qalıb gülüşlərinin...
Zarafat edirəm, sən gül,
Sən güləndə
qəbirlər də gülür,
tabutlar da...
Yaradanın sevinc göz yaşını sağır
çiyni yapıncılı buludlar da...
Sən gül...
Gül ki,
tanrı üzr istəsin
hər kəsin alın yazısından...
Gül ki, saat əqrəbləri qibləsini tapsın,
Zaman intihar etsin qollarında...
Gülüşün
bir sözlük məktub olsun gələcəyinə...

Türküstan.- 2023.- 25-31 iyul.- S.15.